**Nizami rayonunda fəaliyyət göstərən ictimai iaşə müəssisəsində aşkarlanan nöqsanlara dair məlumat**

**(14 iyun 2024)**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən Bakı şəhəri, Nizami rayonu, Qara Qarayev pr., ev 74D ünvanında fəaliyyət göstərən "Dönər Peraşki N1" ictimai iaşə müəssisəsində monitorinq keçirilib.

Monitorinq zamanı qida təhlükəsizliyi sahəsində qüvvədə olan normativ hüquqi aktların, sanitariya norma və qaydalarının tələblərinin pozulduğu məlum olub. Belə ki, müəssisənin qida təhlükəsizliyi qeydiyyatından keçirilmədən fəaliyyət göstərdiyi, istifadə olunan avadanlıqların tamlığının pozulduğu, işçilərin əllərinin, məhsulların və avadanlıqların yuyulması üçün ayrıca yuma çanağının təşkil edilmədiyi, havalandırma sisteminin quraşdırılmadığı, işçilərin tibbi müayinədən keçirilmədiyi və xüsusi geyimlə təmin olunmadığı, mütəmadi təmizlik işlərinin aparılmadığı və digər nöqsanlar aşkarlanıb.

Eyni zamanda ümumi çəkisi 6 kq marinə edilmiş, soyudulmuş bütöv toyuq məhsullarına dair etiket məlumatlarının, məhsulların keyfiyyət və təhlükəsizliyini təsdiq edən sənədlərinin olmadığı müəyyən olunub.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq müəssisə rəhbərliyi barəsində inzibati protokol tərtib olunub, müəssisədə toyuq əti dönərinin satışı dayandırılıb.